

# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 134 (24.271)

*28 iyul 2023-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


*2023-cü il "Heydər Əliyev İli"dir*

## Ümummilli Lider Heydər Əliyev Azərbaycan multikulturalizminin banisidir

*Min illər ərzində tolerantlıq və multikulturalizm ənənələrinə sadiq qalan Azərbaycan xalqı həmin ümumbəşəri dəyərləri öz tarixinin üzvi elementinə və həyat tərzinə çevirmişdir. Tariximizin hansı bir səhifəsini nəzərdən keçirsək, orada çox sayda çeşidli etnosların, fərqli mədəniyyət mənsublarının sarsılmaz bir ailədə, bütöv bir orqanizm kimi, birgə və mehriban yaşamasının şahidi oluruq. Azərbaycan tarixində tolerantlıq və multikulturalizm ideyalarını siyasi müstəviyə və dövlət siyasəti səviyyəsinə Ümummilli Lider Heydər Əliyev çıxarmışdır. Görkəmli dövlət xadiminin Azərbaycana birinci rəhbərliyi (1969-1982) dövrü etnik-milli və mədəni məsələlərə xüsusi diqqət yetirilmiş, dövrün multimədəni dəyərlərinin inkişafında ciddi sıçrayış baş vermişdi.*



1969-cu il iyul ayının 14-də görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etməyə başlaması ilə əlaqədar situasiya kardinal şəkildə dəyişdi. Ümummilli Liderimizə etnik-siyasi münasibətlər sisteminin mahir bilicisi kimi məlum idi ki, "Azərbaycan" adlı məmləkəti öz canı və qanı bahasına, onu təmsil edən çoxmillətli bir xalq – Azərbaycan xalqı yaratmışdır. Elə buna görə də, O, millətlərin hər birinin bu müqəddəs yurdda, torpaqda haqqı və hüququ olmasını "Azərbaycançılıq" ideyasında birləşdirmək kimi bir missiyanı öz üzərinə götürmüşdü. Dahi rəhbərin həyata keçirdiyi etnik-milli siyasət "üçlü kimlik" prinsipinə əsaslanırdı: 1. Sovet kimliyi (Sovet İttifaqının tərkibində bu vacib və məcburi faktor idi). 2. "Azərbaycan" milli-siyasi kimliyi. 3. Etnik-mədəni kimlik.

XX əsrin 60-cı illərinin sonu, 80-ci illərinin əvvəllərində Azərbaycanda yaşayan heç bir milli azlıq, etnik qrup və sosial birlik assimilyasiyaya məruz qalmamış və öz adekvat kimliyini qoruyub saxlamışdı. Azərbaycan Sovet İttifaqının tərkibində olarkən yeganə respublika idi ki, burada yəhudi millətindən olan heç bir kəsə qarşı diskriminasiya hadisəsi baş verməmişdi. Bu da Ulu Öndərin möhtəşəm dühasının və siyasi bacarığının bəhrəsi idi. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyev siyasi hakimiyyətə qayıdanda həyata keçirdiyi ilk tədbirlərdən birincisi ölkənin etnik-siyasi birliyini təmin etmək üçün davamlı və təsirli tədbirlərin görülməsi oldu. O, "Azərbaycançılıq" ideyasını ən ali milli dəyər elan etdi. Fenomenal düha sahibi olan xalqımızın böyük oğlu bütün sahələr kimi tarixi və etnik siyasət məsələlərini də gözəl bilirdi. O, tolerantlığı və multikulturalizmi dövlət siyasəti səviyyəsinə qaldırmaqla, son dərəcə gərgin olan etnik-siyasi və geosiyasi şəraitdə nəinki multikultural təhlükəsizliyi təmin etdi, hətta etnik siyasətdə yeni bir etalon – "Azərbaycan multikulturalizmi" etalonu formalaşdırdı. 1995-ci ildə şəxsən Onun rəhbərliyi altında hazırlanmış və qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında, ölkə ərazisində yaşayan bütün xalqların, etnik qrupların hüquq və azadlıqları bütöv şəkildə təsbit olundu: "Bərabərlik hüququ", "Milli mənsubiyyət hüququ", "Ana dilindən istifadə hüququ". Ümummilli Lider Heydər Əliyev Azərbaycan multikulturalizminin siyasi modelinin assimilyasiya və izolyasiya kimi digər mümkün siyasi modellərdən üstün olduğunu bütün dünyaya bəyan etdi. Bununla bağlı dahi şəxsiyyət deyirdi: ***"Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq"***. Görkəmli siyasət xadimi tolerantlıq və multikulturalizm siyasətini ölkənin demokratik inkişafının əsas tərkib hissəsi hesab edirdi. O, Azərbaycan ərazisində yaşayan milli azlıqların hüquq və azadlıqlarını, o cümlədən etnik-mədəni və dini dəyərlərin qorunmasını demokratiyanın mühüm prinsipi olan "əsas insan hüquq və azadlıqları" kontekstində görürdü. Azərbaycanda və xarici ölkələrdə yaşayan azərbaycanlıların Azərbaycan Respublikası ətrafında sıx birliyinin və həmrəyliyinin, "Azərbaycançılıq ideyası" ətrafında səmərəli fəaliyyətinin təmin edilməsi, Azərbaycanda yaşayan icmaların, cəmiyyətlərin, qrupların və birliklərin səmərəli işinin gücləndirilməsi və əlaqələndirilməsi məqsədilə Ulu Öndər "Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında" 2001-ci il 23 may tarixli Sərəncam verdi. Bu sərəncama əsasən 2001-ci il noyabr ayının 9-10-u tarixində Bakı şəhərində, indiki Heydər Əliyev Sarayında Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə I qurultay keçirildi. Qəlbində "Azərbaycan" adlı alov yanan hər kəs Ulu Öndərin möhtəşəm tarixi çağırışına səs verdi. Bu hadisə bir daha sübut etdi ki, bütün dünyada yaşayan azərbaycanlıların "Azərbaycan" adlanan bir ana Vətəni var və bu yurd, bu ocaq hamı üçün müqəddəsdir. Dinindən, dilindən milli mənsubiyyətindən asılı olmayaraq, burada bütün azərbaycanlıların bəşəri və ilahi haqqı vardır.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən siyasi istiqamət yeni mərhələdə Onun layiqli davamçısı Prezident cənab İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Multikulturalizmi Azərbaycan Respublikasının dövlət siyasəti, xalqımızın təbii həyat tərzi kimi dəyərləndirən ölkə başçısı bu siyasətin həyata keçirilməsində BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu təşkilatlarla əməkdaşlığa xüsusi önəm verir. Məhz bu özəl siyasi xəttin davamı kimi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 26 noyabr 2009-cu il tarixdə imzaladığı xüsusi Qanunla ölkəmizin "Mədəni özünüifadə formalarının müxtəlifliyinin qorunması və təşviqi haqqında" UNESCO Konvensiyasına qoşulmasını göstərmək olar.

Bu sahədə Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 8 fevral tarixli 1291 nömrəli sərəncamına əsasən 2006-cı il martın 16-da Bakı şəhərində, Heydər Əliyev Sarayında Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi müstəsna əhəmiyyət kəsb edir. Qurultayın gedişində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının sədri seçilmişdir. 2008-ci ildən Bakı Prosesi başlanılmışdır. Respublikamızın paytaxtında keçirilən Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərinin toplantısına İslam Əməkdaşlığı Təşkilatının nümayəndələri, nazirlər də dəvət olunmuşdu. Bu, dünya miqyasında çox mühüm bir hadisə idi. Çünki ilk dəfə idi ki, həm Avropa Şurasına, həm də İslam Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlər birgə humanitar xarakterli beynəlxalq tədbirdə iştirak edirdilər. Həmin tədbirin hər iki qurumun fəal üzvü olan Azərbaycanda baş tutması isə, təbii ki, böyük siyasi məna daşıyırdı. Respublikamız bu məsələdə liderliyini ötən illərdə də qoruyub saxlamışdır. 2009-cu ildə İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin nazirlərinin Bakıda keçirilən toplantısına Avropa Şurası ölkələrinin nazirləri də dəvət edilmişdi. 2010-cu ilin aprelində Bakıda dünya dini liderlərinin sammitinin keçirilməsi, noyabrda isə "Dinlərarası dialoq: qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru" mövzusunda tədbirin yüksək səviyyədə təşkili Azərbaycan dövlətinin və onun Prezidenti cənab İlham Əliyevin ölkədə dini tolerantlığa xüsusi önəm verməsindən irəli gəlirdi.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 21 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsinin iyirminci ildönümü" ilə bağlı "Tədbirlər Planı"na əsasən 2011-ci il iyul ayının 5-6-sı tarixdə Bakı şəhərində, Heydər Əliyev Sarayında Dünya Azərbaycanlılarının yeni, III Qurultayı keçirildi. Bu qurultayda çox əvvəllər Azərbaycanda yaşamış, dünyanın müxtəlif ölkələrinin vətəndaşları – rus, yəhudi, ukraynalı, bolqar, axısqa türkü olan insanların iştirakı, onların özlərini azərbaycanlı kimi təqdim və təmsil etmələri xüsusi əhəmiyyət kəsb edir, "Azərbaycan ideyasının" qüdrətini bir daha nümayiş etdirirdi. Azərbaycanın əxlaqi-mədəni, sosial-iqtisadi və siyasi yüksəlişində son dərəcə vacib, xüsusi məqamlardan biri də Prezident cənab İlham Əliyevin təşəbbüsü və iştirakı ilə 2011-ci ildən etibarən 2011, 2013, 2015-ci illərdə Bakıda Beynəlxalq Humanitar Forumun keçirilməsidir. Artıq ənənəyə çevrilmiş bu forumlarda etdiyi çıxışlarında Prezident cənab İlham Əliyev multikulturalizmi ***"alternativi olmayan mədəni siyasət, gələcək inkişaf üçün ən məqbul variant"*** kimi dəyərləndirməklə, təkcə Azərbaycanda deyil, bütün dünyada multikulturalizm meyillərinin gücləndirilməsinin vacibliyini xüsusi olaraq diqqətə çatdırmışdır. Prezident cənab İlham Əliyevin 2014-cü il 28 fevral tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının "Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri xidməti" təşkil edildi. Müəyyən struktur dəyişikliklərinə məruz qalsa da, bu gün bu xidmət ölkənin ideoloji həyatının önəmli istiqamətlərini əlaqəli şəkildə öyrənən, obyektiv cəhətdən müəyyən boşluqların doldurulmasını təmin edən vacib bir orqan kimi fəaliyyətini qurur və günü-gündən genişləndirir. Prezident cənab İlham Əliyevin multikulturalizm siyasətinin daha effektli şəkildə həyata keçirilməsini təmin etmək istiqamətində atdığı növbəti addım onun 2014-cü ilin 15 may tarixdə imzaladığı Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması haqqında Fərman oldu. Mərkəzin yaradılmasında əsas məqsəd ölkədə əsrlərlə formalaşmış tolerantlığın, etnik-mədəni və dini müxtəlifliyin qorunmasını və çiçəklənməsini təmin etmək, həmçinin Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modelləri tədqiq və təşviq etmək idi.

Tolerantlığa, yeni multikulturalizm ideyalarına verdiyi mədəni-siyasi dəyərlərin dünya miqyasında real elmi, mədəni və sosial müstəvilərə çıxarılması işində Heydər Əliyev Fondunun və fondun prezidenti, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri vardır. Multikulturalizm ideyalarının təbliği və təşviqi ilə bağlı baş tutan bütün yerli, regional və beynəlxalq miqyaslı və xarakterli tədbirlər onun rəhbərliyi və təşəbbüsü ilə reallaşdırılır. 2014-2015-ci tədris ilinin payız semestrindən başlayaraq İtaliya, Rusiya, Bolqarıstan, Belarus, Litva, Çexiya, Gürcüstan və digər ölkələrin tanınmış universitetlərində, həmçinin ölkəmizin ali təhsil müəssisələrində "Azərbaycan multikulturalizmi" fənninin tədrisi başlanmışdır. BBMM-in Himayəçilik Şurasının sədri və millətlərarası multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri Kamal Abdullayevin xüsusi təşəbbüsü ilə reallaşan yay və qış məktəbləri isə xarici ölkə universitetlərinin tələbə və müəllimlərinin semestr boyu Azərbaycan haqqında əldə etdikləri əsas nəzəri biliklərin, ölkəmizi artıq əyani şəkildə görməklə tamamlanması məqsədi daşıyır. 2015-ci tədris ilinin I semestrindən Multikulturalizmə giriş (bakalavriat) və Azərbaycan multikulturalizmi (magistratura) fənləri Azərbaycanın 29 ali məktəbində tədris olunur. Ölkəmizdə yüksək təşəkküllü mədəni mühitə əsaslanan məkanın formalaşdırılması və inkişafı istiqamətində həyata keçirilən davamlı tədbirlər Prezident cənab İlham Əliyevin rəhbərliyi altında bu gün daha yüksək səviyyəyə çatmışdır. 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan edilməsi və onunla əlaqədar çoxlu sayda mədəni və siyasi xarakterli möhtəşəm tədbirlərin keçirilməsi buna parlaq sübutdur. Bununla bağlı olaraq, 2016-cı il 3-4 iyun tarixlərdə Bakı şəhərində keçirilən Dünya Azərbaycanlılarının IV Qurultayı Azərbaycan xalqının birlik və həmrəyliyinin daha da möhkəmləndirilməsinə, ölkədə yeni multikultural münasibətlərin yüksək səviyyədə inkişaf etdirilməsi işinə çox vacib töhfə oldu. Azərbaycanda birliyin, həmrəyliyin, multikulturalizm ideyalarının inkişafı istiqamətində növbəti möhtəşəm addım Prezident cənab İlham Əliyevin rəhbərliyi altında 2017-ci il 12-22 may tarixlərdə Bakıda 57 müsəlman dövlətindən olan 6000 idmançının iştirak etdiyi IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi idi. Azərbaycan bu oyunlar vasitəsilə bütün İslam aləminə tolerantlığın, dini dözümlülüyün – ən yüksək təşəkküllü multikultural dəyərlərin real təcəssümünü nümayiş etdirdi. Bu gün cənab Prezident cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda multikulturalizm ideyalarının çox yüksək səviyyədə həyata keçirilməsi istiqamətində möhtəşəm işlər davam edir.

**Toğrul XƏLİLOV**
*tarix üzrə fəlsəfə doktoru*

## AZAL Bakı-Naxçıvan reyslərinin sayını artırıb

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti (AZAL) Bakı-Naxçıvan-Bakı marşrutu üzrə reyslərin sayını əhəmiyyətli dərəcədə artıraraq gündə 10 dəfəyə çatdırıb.

Məlumata görə, aviaşirkət ehtiyac olduqda sərnişinlərin tələbini ödəmək üçün əlavə uçuşlar həyata keçirməyə hazırdır. Uçuşların tezliyinin artırılması sərnişinlərə Azərbaycanın iki şəhəri arasında səfərlərinin planlaşdırılmasında daha çox çeviklik təmin edəcək.

Bundan əlavə, aviaşirkət Bakıdan Naxçıvana və ya əks istiqamətdə səyahət etməyi planlaşdıran bütün sərnişinlərə aviabiletləri əvvəlcədən almağı tövsiyə edib. Bu onlara ən əlverişli uçuş vaxtını seçmək imkanı verəcək və mümkün narahatlıqların qarşısını almağa kömək edəcək.

Bu ilin əvvəlindən Bakı-Naxçıvan-Bakı marşrutu üzrə 300 mindən çox sərnişin daşınıb. Sərnişin axınının pik həddi bu ilin iyun və iyul aylarına təsadüf edir. Belə ki, yayın iki ayı ərzində 1 000-dən çox reys yerinə yetirilib və 144 mindən çox sərnişin daşınıb. Bu marşrut üzrə gündə orta hesabla 2700-ə yaxın sərnişinə xidmət göstərilib. Bu iki ay ərzində Bakı-Naxçıvan-Bakı marşrutu üzrə ən çox reys iyunun 26-da (14 reys) və iyulun 6-da (13 reys) həyata keçirilib.

**Xəbərlər şöbəsi**

*Ötən həftə regionun ictimai-siyasi həyatında yaddaqalan hadisələrdən ən mühümü “4-cü Sənaye İnqilabı dövründə Yeni Media” mövzusunda Şuşa Qlobal Media Forumu oldu. İki gün ərzində nüfuzlu media, jurnalist təşkilatları rəhbərləri, ekspertlər media və informasiya-kommunikasiya sahəsinin aktual məsələlərini ətraflı müzakirə etdilər. İyulun 21-də forumun açılış mərasimində iştirak edən ölkəmizin başçısı cənab İlham Əliyev yerli və beynəlxalq jurnalistlərin suallarını cavablandırdı, dünya siyasi arenasında cərəyan edən hadisələrin fonunda ölkəmizin daxili, xarici siyasətinin müxtəlif aspektlərinə toxundu, regionun iqtisadi mənzərəsini dəyişdirən layihələrin əhəmiyyətindən, ölkələrarası perspektiv əməkdaşlıq əlaqələrindən danışdı...*

## Prezident cənab İlham Əliyev:

## *“...bizim ölkəmiz rəqabət məkanı deyil, əməkdaşlıq məkanıdır”*




Prezidentə rusiyalı politoloq Sergey Markovun ünvanladığı Ermənistan-Azərbaycan münasibətlərinin nizama salınması, sülh danışıq formatları, vasitəçilərin fəaliyyəti barədə sual siyasi gündəmin əsas mövzusunun təhlili, müzakirəsi baxımından mühüm əhəmiyyət kəsb etdi. Dövlət başçısının müqayisəli şəkildə mövcud vəziyyəti analiz edərək verdiyi cavabda bir sıra məqamlar xüsusilə diqqət çəkdi. Birincisi, ATƏT-in Minsk qrupu və digər danışıq formatları ilə bağlıdır. Minsk qrupu deyilən kimi, ilk ağıla gələn fikir, heç şübhəsiz, ermənipərəst Fransanın da yer aldığı həmin qurumun 30 illik fəaliyyətsizliyi ilə bağlı olur. Bu baxımdan I, II Qarabağ müharibələri arasındakı dövrdə və son 3 ilə yaxın müddətdə aparılan danışıqları müqayisə etdikdə fərqlər açıq-aşkar görünür. Bu fərqi yaradan təkcə qismən dəyişilən vasitəçilərin məsələyə daha ciddi, obyektiv yanaşması deyil, həm də Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı parlaq qələbə nəticəsində geosiyasi vəziyyəti dəyişdirməsi və beləliklə, diktə edən tərəfə çevrilməsidir. Digər tərəfdən, ölkəmizin ortaya qoyduğu haqlı mövqe beynəlxalq hüquqa əsaslanır və nüfuzlu təşkilatlar da bunun fərqindədirlər, dəstəkləməkdən başqa çıxış yolları yoxdur... Ölkə başçısının da qeyd etdiyi kimi, bu gün sülhün əldə olunması üçün birbaşa vasitəçi dünyanın iki nəhəng dövləti ABŞ və Rusiyadır. Eyni zamanda sülhə dəstək mexanizmini yerinə yetirən, qeyri-rəsmi Brüssel formatı da vardır. Bu xüsusda vurğulamaq yerinə düşər ki, iyulun 15-də sayca 6-cı dəfə baş tutan Brüssel görüşünün nəticələri ilə bağlı bəyanatda sülhə gedən yolda artıq müəyyən qədər irəliləyişin olduğunu, eyni zamanda xarici işlər nazirləri, onların heyətləri və ekspertlər səviyyəsində aparılan rəsmi danışıqların yekun mərhələyə doğru irəlilədiyi vurğulandı. ATƏT-in Minsk qrupuna gəldikdə isə qurumun 30 il ərzində bir tək nəzərəçarpan addımı 2009-cu ildə irəli sürdüyü, Ermənistan tərəfindən işğal olunmuş rayonların mərhələli şəkildə qaytarılmasını nəzərdə tutan “Madrid prinsipləri”dir ki, o da, 11 il kağız üzərində qaldı və həmin prinsiplərin müddəalarının bir çoxunu dövlətimiz hərbi-siyasi yolla yerinə yetirdi. Ölkə Prezidenti rusiyalı politoloqun sualına cavabında həmin danışıq formatının effektivsizliyini diqqətə çatdıraraq bu amili xüsusi vurğuladı: ***“Minsk qrupuna gəldikdə, demək istəyirəm ki, onun fəaliyyətsizliyini mən yox, onlar özləri etdilər. Yəni İkinci Qarabağ müharibəsindən sonra onlar da özlərinə sual verməyə başladılar ki, növbəti hansı addımlar atmalıdırlar. Bizimlə təmas quranda mən qeyd etdim ki, münaqişə artıq bitib. “Madrid prinsipləri” adlandırılan sənədin bir çox müddəaları artıq həll edilibdir”.***

Suala tam mahiyyəti ilə dərindən yanaşan dövlət başçısı İkinci Qarabağ müharibəsinin sonunda imzalanan 10 noyabr Bəyanatında yer alan iki müddəaya da toxundu. Birincisi qeyri-qanuni erməni silahlı qüvvələrinin Qarabağdan çıxarılması, ikincisi isə Naxçıvanla Azərbaycanın digər bölgələrinin kommunikasiya əlaqəsinin təmin edilməsidir. Bəli, çox təəssüf ki, namərd qonşularımız kapitulyasiyanı həzm etməkdə çətinlik çəkir, müddəalara əməl etməməkdən ötrü bütün yolları mübah bilirlər. Ya danışıqların getdiyi bir vaxtda sərhəddə, qanunsuz məskunlaşdıqları ərazidə təxribata əl atır, ya da müxtəlif cəfəng bəyanatlarla, qondarma status iddiaları ilə sülh ab-havasını korlamağa çalışırlar. Qalib Lider isə hər zaman qətiyyətlə bildirir ki, bəyanatın müddəaları sözsüz yerinə yetirilməlidir, qondarma hərbi birləşmələr dərhal ərazidən çıxmalı, Qarabağda yaşayan ermənilər ya Azərbaycan Bayrağı altında, Konstitusiyamıza, qanunlarımıza uyğun bərabər hüquq çərçivəsində yaşamalı, ya da ərazimizi tərk etməlidirlər. Ancaq görünən odur ki, ermənilər təkcə Laçın yolundan istifadə etməkdə israrlıdır, son Brüssel görüşündə irəli sürülən təklifdən, yəni, humanitar məqsədlər üçün Ağdam yolundan istifadədən imtina edir, yolu bağlamağa, məsələni siyasiləşdirməyə çalışır. Dövlət rəsmimizin də vurğuladığı kimi, Beynəlxalq ictimaiyyət Ağdam-Xankəndi yolundan istifadə edilməsi və Qarabağın erməni əhalisinin Azərbaycana reinteqrasiyası ilə bağlı aydın ismarış verməlidir.Başqa yol yoxdur! Oyun bitdi! Digər tərəfdən, əgər milli azlıqların hüquqları və təhlükəsizliyi ilə bağlı məsələlər qaldırılırsa, bu hər iki ölkəyə aiddir. Ermənistan Qarabağda yaşayan erməni əhalisinin hüquqları haqqında danışırsa, o zaman Zəngəzurda, Göyçədə, İrəvanda da azərbaycanlıların hüquqlarını təmin etməlidir. Artıq Avropa səviyyəsində də qarşı tərəfin irəli sürdüyü təkliflər, bu istər Minsk qrupunun yenidən danışıqlar masasına çəkilməsi, qanunsuz status tələbi, istərsə də delimitasiyanın heç bir hüquqi əsası olmayan 1975-ci ilin xəritələri əsasında müəyyənləşdirilməsi olsun, özünə yer edə bilməyib. Əvəzində son Brüssel görüşündə bir daha Ermənistan tərəfi 1991-ci il Alma-Ata Bəyannaməsinə uyğun olaraq ölkəmizin ərazi bütövlüyünü tanıdığını bildirib, Qərbi Azərbaycan icması və onların öz torpaqlarına qayıdışı məsələsi müzakirə olunub... Prezidentin qeyd etdiyi üçtərəfli bəyanatın ikinci müddəası isə nəinki Azərbaycanın, bütün region ölkələrinin, dünya siyasi güclərinin marağında olan Zəngəzur dəhlizi məsələsi ilə bağlıdır ki, bu baxımdan da Ermənistan üçün ssenari eynidir: vəziyyəti dondurmaq, mənasız yerə vaxt uzatmaq. Ancaq dövlətimizin başçısı dəfələrlə qətiyyətli şəkildə vurğulayıb ki, Zəngəzur dəhlizi açılacaq, Ermənistan bunu istəsə də, istəməsə də. Naxçıvanın Azərbaycanın qərb rayonları ilə iqtisadi-ticarət əlaqələri bərpa ediləcək və bu istiqamətdə bir sıra irimiqyaslı layihələr icra olunacaq, hansılar ki “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda da öz əksini tapıb...

Rusiyalı politoloq Sergey Markovun ünvanladığı suala əhatəli şəkildə, faktlar əsasında müfəssəl cavab verən Prezident cənab İlham Əliyev dövlət başçısı kimi həm işğal dövründə, həm müharibə zamanı, həm də müharibədən sonrakı mərhələdə həssaslıqla, ciddi yanaşdığı ən vacib məsələni də diqqətə çatdırdı. Dünya siyasi gedişatı çərçivəsində ölkəmizin maraqlarına uyğun addımların vaxtında atıldığını vurğulayan Liderimiz bunun nəticəsində Azərbaycanın böyük güclərin rəqabət meydanına çevrilmədiyini diqqətə çatdırdı. ***“Mənim üçün Prezident olaraq hər zaman vacib olub, hətta işğal dövründə də vacib olub ki, Azərbaycan rəqabət meydanına çevrilməməlidir. Bu bizim üçün və istənilən ölkə üçün ən pis ssenaridir. Biz bu gün görürük ki, məhz bu, Ermənistanda baş verir. Ermənistan elə bir ölkəyə çevrilir ki, orada ciddi rəqabət gedir və bu, ciddi problemlər yarada bilər...”*** Bəli, biz danışıqlar fonunda artıq bir neçə ildir, Ermənistanın rəqabət meydanına çevrildiyini açıq-aşkar görə bilirik. Bu amil özünü bu ölkədə təşkil edilən çevrilişdə böyük rolu olan Corc Sorosun Ermənistanın baş naziri Nikol Paşinyan vasitəsilə orada təsir dairəsini saxlamaq cəhdlərində, ABŞ Konqresinin Nümayəndələr Palatasının spikeri Nancy Pelosinin Ermənistana səfərində, Fransanın təxribata dəstək verən bəyanatlarında göstərir. Sözügedən məsələ ilə bağlı kifayət qədər fakt qeyd etmək, nümunə çəkmək olar... Elə iyulun 25-də Moskvada Rusiya, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşündən sonra Rusiya Xarici İşlər Nazirliyinin (XİN) sözçüsü Mariya Zaxarovanın keçirdiyi mətbuat konfransında səsləndirdiyi fikirlər də Ermənistanda ziddiyyətli hadisələrin cərəyan etdiyini göstərir. Belə ki, nazirliyin əməkdaşı Azərbaycan Prezidenti cənab İlham Əliyevin Rusiya ilə Azərbaycan arasında qarşılıqlı əlaqələrin yüksək qiymətləndirilməsi haqqında fikirlərini bölüşdüyünü vurğuladığı halda, Avropa İttifaqının Ermənistandakı missiyasının Bakı-İrəvan münasibətlərinin normallaşmasına töhfə vermədiyini diqqətə çatdırıb...

Siyasi vəziyyətlər göstərir ki, dövlət idarəçiliyində heç bir effektivlik nümayiş etdirə bilməyən, təxribatçı qüvvələri ölkəsinə cəlb edən, böyük güclər, beynəlxalq təşkilatlar arası qarşıdurmaya ev sahibliyi edən Ermənistanın xunta rejimindən fərqli olaraq xalq-iqtidar birliyinə, dost ölkələrin mənəvi gücünə arxalanan Azərbaycan hakimiyyətinin siyasi iradəsi nəticəsində ölkəmiz əsl sülhsevər zonaya, beynəlxalq hüququn tənzimləndiyi, əməkdaşlıqların qurulduğu məkana çevrilir. Cənab Prezidentin də qeyd etdiyi kimi, Rusiya və Amerika silahlı qüvvələrinin yüksək səviyyəli nümayəndələri, çox yüksək, yəni ordu qərargahlarının komandanları, NATO komandanları görüşlər üçün hər zaman Bakını seçiblər. Nümunə üçün, 2017-ci il sentyabrın 7-də NATO Hərbi Komitəsinin rəhbəri Petr Pavel və Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valery Gerasimovun, 2020-ci il fevralın 6-da NATO-nun Avropadakı Ali Komandanı Tod D. Wolters və Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin görüşlərini qeyd etmək olar. Həmin görüşlərdə Avropa və Yaxın Şərqdə təhlükəsizlik, böhranlı regionlardakı vəziyyət və strateji sabitlik məsələləri müzakirə olunub, tərəflər hərbi fəaliyyət zamanı baş verə biləcək insidentlərin qarşısının alınması üçün birgə addımlar atmağa, kontaktları davam etdirməyə qərar veriblər... Bütün bu və digər faktlar ölkə başçısının Şuşa Qlobal Media Forumunda rusiyalı politoloq Sergey Markovun sualına cavabında səsləndirdiyi devizin əməli təsdiqidir: ***“...bizim ölkəmiz rəqabət məkanı deyil, əməkdaşlıq məkanıdır...”***

✍ **Nail ƏSGƏROV**

*Azərbaycanda həyata keçirilən səmərəli iqtisadi siyasət ölkəmizin dayanıqlı inkişafını təmin edib. Bütün sahələri əhatə edən çoxşaxəli islahatlar milli inkişafı şərtləndirən strateji amil olmaqla yanaşı, gələcək tərəqqi üçün də geniş perspektivlər yaradıb. Digər tərəfdən, ölkəmizin tərəqqisinə fundamental töhfələr verən amillərdən biri regionların sosial-iqtisadi inkişafı istiqamətində mühüm nailiyyətlərin əldə edilməsidir.*

## Təmir-bərpa işləri və abadlıq tədbirlərinin həyata keçirilməsi diqqət mərkəzindədir

2023-cü ildə bu istiqamətdə həyata keçirilən tədbirlər və qazanılan nailiyyətlər pozitiv qiymətləndirilir. Bu məqamda qeyd etmək lazımdır ki, regionların sosial-iqtisadi



inkişafı Dövlət proqramları çərçivəsində müxtəlif sahələri əhatə edən layihələr uğurla reallaşdırılır. Bölgələrdə quruculuq və təmir-bərpa işləri də uğurla davam etdirilir. Əminliklə söyləmək olar ki, tikinti-quruculuq işlərinin aparılması, abadlıq tədbirlərinin həyata keçirilməsi regionların simasını əsaslı dərəcədə dəyişdirib və bu proses davamlı xarakter daşıyır.

Muxtar respublikanın ən böyük bölgəsi olan Şərur rayonunda istehsal müəssisələri, təhsil, səhiyyə və digər qurumlar üçün binaların tikintisi, yolların və digər infrastrukturların yenilənməsi diqqət mərkəzində saxlanılır. Cari ildə də belə tədbirlər sürətlə davam etdirilir, geniş və iri layihələr icra olunur. Yaxın günlərdə rayonun Axura



və Həmzəli kəndlərində yenidənqurma işləri tamamlanıb, sakinlərin istifadəsinə verilib. Hazırda Tənənəm kəndində



yerləşən Süleyman pirinin təmiri aparılır. Kəndə gələn yol yenidən qurulur. Paralel olaraq su xətlərində olan problemlər aradan qaldırılır.

✍ **Ramiyyə ƏKBƏROVA**

## Subsidiyaların verilməsi qanunvericiliklə tənzimlənəcək



Növbəti mövsümdə sənədləri düzgün formalaşdırılmayan, torpaqları analiz edilməyən təsərrüfat sahiblərinə subsidiyalar verilməyəcək. Bu barədə sənədləri düzgün formalaşdırılmayan təsərrüfat sahibləri və icra nümayəndələrinin iştirakı ilə keçirilən görüşdə Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Xəyalə Dadaşova məlumat verib.

Qeyd olunub ki, təsərrüfat sahiblərinə subsidiyaların vaxtında ödənilməsi əsas prinsiplərimizdəndir. Amma, təəssüf ki, bununla bağlı ya sənədlər vaxtında göndərilmir, ya da sənədlərdə bir sıra problemlər olur. Bu səbəbdən növbəti mövsümdə sənədləşdirmə məsələlərinə olduqca ciddi yanaşılmalıdır.

“Hər kəs öz torpağını əkməlidir”, – deyən Xəyalə Dadaşova başqasının torpağını icazəsiz əkməyin qanunsuz olduğunu bildirib. Diqqətə çatdırıb ki, bu halda torpağın sahibi tərəfindən verilən etibarnamə olmalı, müqavilə imzalanmalıdır. Artıq növbəti mövsümdən bu sənədləri olmayan şəxslər subsidiya ala bilməyəcəklər.

Nazir müavini deyib ki, bu məsələlərə icra nümayəndələri xüsusilə ciddi yanaşmalı, vətəndaşlara lazımi köməklik göstərməlidirlər.

Nazirliyin Dövlət dəstəyi, aqrar sığorta, kredit və investisiyaların tənzimlənməsi sektorunun baş məsləhətçisi Elnur Abbasov Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin əməkdaşları ilə birgə yaz əkinləri ilə bağlı aparılan monitorinq və aşkarlanan nöqsanlar barədə məlumat verib.

Nazirliyin aparat rəhbəri Vüsal İbrahimov isə subsidiya ilə bağlı mövcud qanunvericilik haqqında danışıb.

Görüşdə iştirak edən təsərrüfat sahiblərinin problemləri dinlənilib və qeydiyyata alınıb.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

*İslam tarixindən məlum olan, Həzrəti Hüseyn və onun haqq mübarizəsi 1400 ildir ki, bu torpaqların mübarizə və and yerinə çevrilib. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dediyi kimi: **"Aşura günü biz dinimizə və adət-ənənələrimizə sadiq olaraq məscidə toplaşırıq və haqq-ədalət uğrunda şəhid olan İmam Hüseynin əziz xatirəsini yad edirik".** İmam Hüseynin mübarizəsi insanların məişətində, yaşam tərzində illərboyu özünəmxsus yer alıb.*

# Şəhadət məqamı və Aşura missiyası



Sovet hökumətinin inanclara qarşı repressiya illərində insanlar inanclarını qoruyub saxlamaq üçün Hüseyn və tərəfdaşlarının adlarını müxtəlif formalarda zikr edərək yaşatmağa çalışmışlar.

Əsrlər boyunca məşəl rolu oynamış Kərbəla faciəsi təkcə Həzrəti Hüseynin dövrü ilə məhdudlaşmayaraq bütün zamanlarda ibrət götürüləcək mükəmməl bir fədakarlığa çevrilmişdir. Azərbaycan xalqının tarixinin müəyyən məqamları ilə Kərbəla faciəsi arasında bir bağlılıq var: zülmə düçar olmuş peyğəmbər ümməti və zülmə məruz qalmış Azərbaycan xalqı. 30 il davam edən Ermənistanın işğalçılıq siyasəti Azərbaycan xalqının öz dədə-baba yurdundan didərgin salınması zülmə qarşı olan, haqqı hər zaman üstün tutan Azərbaycan xalqına qarşı zülm idi. Qəddar düşmənin soydaşlarımızın şərəf və ləyaqətini alçaltdığı belə bir zamanda yatmış vicdanları oyadıb, duyğuları coşduracaq böyük bir fədakarlıq örnəyinə çevrildi Həzrəti Hüseyn mücadiləsi. Heç təsadüfi deyildir ki, "Vətən sağ olsun!", "Vətən uğrunda irəli!", "Yaşasın Azərbaycan!", – deyə ölümə atılan igidlərimizin döyüş meydanındakı şüarlarından biri də "Ya Hüseyn!" idi. İşğaldan azad edilmiş el-obamıza ordumuz ilk qədəm basdığı an üçrəngli bayrağımızı zirvələrə sancmaqla yanaşı, şövqlə azan sədalarını da yüksəltdi. Düşmənin viran qoyduğu, bu gün isə dövlətimizin yüksək dini ehtiram əlaməti olaraq bərpa edib dindarların istifadəsinə verdiyi məscidlərimizdə Həzrəti Hüseyn rituallarla, həm də adil dövlətimizə şükranlıqla yad edilir.

Kərbəla hadisəsi öz səbəb və nəticələri ilə bütün nəsillərə dərs keçib, qurtuluş və xilas yolunu açdığı üçündür ki, dini fanatizmdən çox-çox üstün mübarizə simvoludur. Həzrəti Hüseynin hədəflərini təhrif etmək, Kərbəla hadisəsini fanatikcəsinə qeyd etmək, bunu ağlaşma, hüzn və mərsiyələrlə məhdudlaşdırmaq olmaz. Biz bu faciəni ona görə yada salırıq ki, Kərbəla şəhidlərinin fədakarlığı və onun təsir gücünün ölçüsünü dərk edək. Biz Aşura mərasimində ağlamaqla, zəncir vurmaqla, baş yarmaqla dini ibadət etdiyimizi, günahlarımızın bağışlandığını və bununla da rahatladığımızı düşünsək, yanılarıq. Əksinə, İmam Hüseynin anım mərasimlərini yuxarıda qeyd etdiyim ayinlərlə yad etmək çox zərərlidir. İmam Hüseynin faciəsini bizim davranışımızda, yaşamımızda heç bir iz buraxmadan, ancaq anım mərasimi, ağlamaq və hüzn çərçivəsində dəyərləndirmək bu hədəfləri təhrif etməkdir. Çünki sadaladığımız bu rituallar hadisənin mahiyyətini azdırır, fədakarlığın izlərini itirir.

Bu ağır səfər, bu misligörülməmiş fədakarlıq və bu əzəmətli şəhadət heç şübhə yoxdur ki, din, əqidə uğrunda olmuşdur. Həzrəti Hüseyn bütün mömin, inanclı insanların yolunda şəhid olub. İnsanlar Kərbəla hadisəsini yalnız qəlb gözü ilə görüb imanını artıra bilər. Buna görə də hər il Aşura gününü mərhəmət və insanlıq, milli-mənəvi, dini birlik, əqidə, məslək, Vətən yolunda şəhadətin böyüklüyünü dərk etməklə qeyd etməliyik.

Tarixin müxtəlif dövrlərində dahi klassiklərimiz də mövzuya bu prizmadan müraciət ediblər. Kərbəla vaqiəsindən, təxminən, 1200 il sonra sonuncu Qarabağ xanı Mehdiqulu xan Cavanşirin qızı, İbrahimxəlil xanın nəvəsi Xurşidbanu Natəvan sanki əsrlər sonra Qarabağında, doğma Şuşasında törədiləcək qeyri-insani vəhşəti görərək, ürəyinin qələmə axıtdığı hüzn və kədərlə o günləri yaşayır kimi deyirdi:

*Söylə Hüseynə, ey səba, Kərbübəlaya gəlməsün,*
*Gəlsə, düşər bu dəştidə dərdü bəlayə, gəlməsün.*

1820-1830-cu illərdə çar Rusiyası ordusunda qulluq etdiyi zaman Gülüstan və Türkmənçay müqavilələrinin imzalanmasında tərcüməçi kimi iştirak etmiş Abbasqulu ağa Bakıxanov bir məmləkətin bölüşdürülməsini Kərbəlanın timsalında belə ifadə edirdi:

*Kərbəla, saxlagilən naşi-Əliəkbərimi,*
*Verirəm, çünki əmanət sənə gülpeykərimi.*

Azərbaycan musiqi sənətinin zirvəsi hesab olunan Üzeyir Hacıbəyli isə sanki illər sonra Qarabağ uğrunda şəhadətə yetişmək üçün haqq savaşına qoşulan həmvətənlərinə səslənərək "Biz hürriyyət, həqq və həqqaniyyət yolunda can qurban etmiş olan övladı-peyğəmbərin təziyəsini dünya durduqca hər məhərrəm yada salıb ağlayacağıq" söyləyirdi.

Nəinki İslam dünyası, bütün dünya – Hindistanın dövlət xadimi Mahatma Qandi, görkəmli rus yazıçısı və mütəfəkkiri Lev Tolstoy, fransız yazıçısı və filosofu Viktor Hüqo, ingilis yazıçısı Çarlz Dikkens, Böyük Britaniya şərqşünası, yazıçısı, tərcüməçisi və alimi Edvard Braun, ədəbiyyat üzrə Nobel mükafatı laureatı Rabindranat Taqor, Hindistanın ilk baş naziri Cəvahirləl Nehru, Hindistanın eks-prezidenti Radra Krişnan və "İmam Əli" kitabının müəllifi, xristian yazıçı Corc Cordaq və başqaları Həzrəti Hüseynin timsalında haqq səsinin carçısı olmaqdan qürur duyduqlarını ifadə ediblər.

Müstəqil Azərbaycanımızın memarı, Ümummilli Liderimiz Heydər Əliyev isə Bakıda Təzəpir məscidinin açılışında demişdi: ***"Bizim yolumuz Allah yoludur, Məhəmməd Peyğəmbərin yolu və İmam Hüseynin yoludur".***

1400 il əvvəl Kərbəla şəhidləri İslamın, nəcibliyin, gözəlliyin və ən əsası da haqqın yaşaması, əqidə uğrunda mübarizə aparıb, bu ali məqsəd uğrunda qanlarını axıdıblar. Bu gün biz onların miras qoyduğu bu yolu, bu əməli davam etdirərək Vətən yolunda, haqq yolunda, müstəqil dövlətimizin qorunması uğrunda cihada hazır olduğumuzu sübut etdik və buna hər zaman hazırıq. Məhz bu mənada Aşura günü həm də Vətən şühədalarının, cəmi şəhidlərimizin xatirəsinin ehtiram və minnətdarlıqla anıldığı, ruhlarının dua və ehsanlarla zikr edildiyi gündür. Həmin gün qan qardaşlarımıza – ehtiyacı olan insanlara qan bağışlamaqla, onlara ikinci bir həyat bəxş etməklə xeyirxahlıq nümunəsi göstərməyimiz isə qardaşlıq, soydaşlıq, dindaşlıq, humanizm nümunəsi kimi bəşəriyyətə örnəkdir.

Ölkə başçısı cənab İlham Əliyevin dəyişməz, stabil siyasəti nəticəsində ölkəmiz müasir İslam dövlətlərinin mədəni-mənəvi paytaxtlarından birinə çevrilməklə yanaşı, həm də bütün dinlər üçün isti qucağını açmış, onlar üçün tolerant bir siyasət formalaşdırmış, məzhəb ayrı-seçkiliyi, dini əqidəsizlik demək olar ki, tarixin arxivinə gömülmüşdür. Xristian, yəhudi və sair icmaların nümayəndələrinin dini ayin və mərasimlərdə birgə iştirak etdiyinə şahid oluruq ki, bunlar da dövlət siyasətimizin tərkib hissəsidir. İslami dəyərlər isə milli-mənəvi dəyərlərimiz sırasında əsas yerlərdən birini tutur. Prezident cənab İlham Əliyevin də dediyi kimi: ***"Azərbaycan qədim tarixə malik olan bir ölkədir. Azərbaycan xalqı əsrlərboyu öz milli-mənəvi dəyərlərini yaşatmış, qorumuşdur. İslam dəyərləri isə milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir. Ölkəmizdə dini sahədə hökm sürən əmin-amanlıq, qarşılıqlı anlaşma, müsəlmanlar arasında mövcud olan birlik, dinlərarası münasibətlərin yüksək səviyyədə tənzimlənməsi bu gün ölkəmizi gücləndirən amillərdən biridir".***

**Fariz ƏHMƏDOV**

---

*Şəhidlik bir insanın yüksələ biləcəyi ən böyük zirvə, ən ali məqam, Allahdan diləyə biləcəyi ən böyük arzudur. Məhz Allah üçün, haqq üçün savaşanlar, Vətəni, milləti, ailəsi, şərəfi, izzəti üçün canı, qanı bahasına mübarizə aparanlar o zirvəyə yüksəlirlər. Xalqımızın igid oğulları, qeyrətli qızları da zaman-zaman dövlətimizə, xalqımıza qarşı törədilən təcavüzlərin qarşısını almaq, azadlığımızı, müstəqilliyimizi qorumaq, ərazi bütövlüyümüzü təmin etmək üçün ölüm-dirim savaşına qalxmış və bir çoxu bu mübarizələrdə qəhrəmancasına şəhid olmuşdur. Torpaqlarımızın azadlığı, ədalətin bərqərar olması üçün canından keçərək şəhadətə yüksələn və həmişə bizim fəxrimiz, qürur mənbəyimiz olan o igidlərdən biri də Quliyev Vəli Kamal oğludur.*

### Əfsanəyə dönən ömürlər

# Elin qəhrəman oğlu



Vəli Quliyev 1997-ci ildə Culfa rayonunun Qazançı kəndində anadan olmuşdu. 2003-cü ildə Qazançı kənd tam orta məktəbinin I sinfinə qəbul edilən Vəli 2009-cu ildən təhsilini Naxçıvan şəhər 17 nömrəli tam orta məktəbdə davam etdirmişdi. 2011-ci ildə Heydər Əliyev adına Hərbi Liseyə daxil olmuş, 2014-cü ildə həmin liseyi bitirərək Azərbaycan Ali Hərbi Məktəbinə qəbul edilmişdir. O, 2018-ci ildə ali hərbi təhsilini başa vurduqdan sonra Azərbaycan Silahlı Qüvvələrinin Ağcabədi rayonunda yerləşən hərbi hissələrindən birində xidmətə başlamış, bir müddət sonra isə ön xətdə yerləşən başqa bir hərbi hissəyə göndərilmişdi. Bir il orada xidmət etdikdən sonra yenidən xidmətə başladığı hərbi hissəyə qaytarılan və orada taqım komandiri, bölük komandiri kimi vəzifələrdə xidmət edən Azərbaycan Silahlı Qüvvələrinin leytenantı Vəli Quliyev 2 ilə yaxın sərhəd bölgəsində xidmət etmişdi. Noyabrın 6-da Qubadlıda gedən qanlı döyüşlərdə isə qəhrəmancasına şəhidlik zirvəsinə ucaldı.

2020-ci il sentyabrın 27-də Ermənistanın ölkəmizə qarşı başlatdığı növbəti təxribatın qarşısını almaq və torpaqlarımızı düşmən tapdağından xilas etmək məqsədilə başlayan və 44 gün sürən Vətən müharibəsinin ilk günündən döyüşlərə qatılan Vəli torpaqlarımızın işğaldan azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi üçün əlindən gələni edir, Cəbrayılın, Füzulinin, Zəngilanın və Qubadlının azad olunması uğrunda gedən döyüşlərdə əsl igidlik, vətənpərvərlik, fədakarlıq nümunəsi göstərir.

Vəli Quliyev aparılan əməliyyatlar zamanı hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə, şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müxtəlif sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Cəsur döyüşçü" medalları və "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir. Vətən uğrunda şəhid olan bu cür qəhrəmanlarımıza verilən ən yüksək qiymət isə onları daim xatırlamaq, onların xatirəsini yaşatmaqdır. Biz də bu məqsədlə şəhid Vəli Quliyevin evini ziyarət etdik, doğmaları ilə həmsöhbət olduq. Şəhidin atası ***Kamal dayı***dan Vəlinin uşaqlığından, onunla bağlı xatirələrindən danışmasını xahiş etdik. Kamal dayının dediklərindən:

– Vəli uşaqlıqdan fərqli xarakteri, xoş xasiyyəti, tərbiyəsi, vətənpərvərliyi ilə daim seçilirdi. Vəlinin məktəbdə keçirilən tədbirlərdən çəkilmiş videoyazılarını tez-tez izləyirik.

Vəli həm də çox ünsiyyətcil, mehriban uşaq idi. Ona görə də məhəllənin bütün uşaqları Vəlini çox sevirdi. Biz Culfadan Naxçıvan şəhərinə köçüb gəlsək də, həmin uşaqlar Vəli ilə əlaqəni kəsmədilər. Hətta o uşaqlar Naxçıvana köçdüyümüz günün sabahı səhər açılanda artıq bizdə idilər. Vəlinin mehribanlığı ona sonsuz hörmət və sevgi qazandırmışdı. Onunla hərbi liseydə, Azərbaycan Ali Hərbi Məktəbində oxuyan uşaqların əksəriyyəti Vəli ilə dostluq edirdi.

Onu da deyim ki, Vəli kiminsə onun işinə irad bildirməsini heç vaxt qəbul etməzdi. Vəli məsuliyyəti, qayğıkeşliyi, mehribanlığı ilə yoldaşlarının da rəğbətini qazanmışdı. Hər dəfə Vəlidən söz düşəndə iş və döyüş yoldaşları xüsusi vurğulayırlar ki, o bizim təkcə iş yoldaşımız, döyüş yoldaşımız deyildi. O bizə dost, qardaş, hər sözlə, doğmalarımız qədər yaxın idi. Biz ondan heç vaxt inciməmdik, onun heç bir mənfi xüsusiyyətini görmədik. Bütün dostları onun xətrini çox istəyirdi. Hətta Saatlı rayonundan olan bir əsgəri övladına komandiri Vəlinin adını qoyub.

Vəli xidmətə başlayanda onu Ağcabədi rayonunda yerləşən hərbi hissələrdən birinə göndərmişdilər. O, ərizə yazaraq düşmənlə sərhəddə olan bölgəyə köçürülməsini istədi və buna nail oldu. Vətən müharibəsi başlayan gündən döyüşlərə qatılan Vəli ürəyində düşmənə qarşı çox böyük kin bəsləyirdi. Müharibə zamanı ondan nigaran qalan qohumlara deyirdim ki, siz narahat olmayın, Vəlinin qəlbindəki intiqam hissi, düşmənə olan nifrəti ona daha da güc verəcək.

Vəli çox qürurlu idi. Hər dəfə döyüşdən, müharibədən söz açılanda deyirdi ki, mən özümü öldürərəm, ancaq düşmənə əsir düşməyəm. Döyüş yoldaşları deyir ki, Vəli əməliyyatlar zamanı şücaəti, fədakarlığı ilə əsl igidlik nümunəsi göstərdi, ayıq-sayıqlığı ilə dəfələrlə döyüş yoldaşlarının həyatını xilas etdi.

Şəhidimizin anası ***Həqiqət xanım*** da söhbətə qoşulur. Deyir ki, Vəli Vətəninə, millətinə, xalqına xeyirli övlad oldu. Canı, qanı bahasına torpaqlarımızın azadlığı uğrunda mübarizə apardı. Qazandığımız qələbəyə o da öz imzasını atdı. Şükürlər olsun ki, Vəlinin adı el-obamıza, xalqımıza zəfər yaşadan, başıucalıq gətirən igidlər sırasında oldu. Vəli Allahın ona verdiyi qısa ömrü şərəflə yaşadı, şərəflə başa vurdu, torpaqlarımızın azadlığı uğrunda canını fəda edərək əbədiyyətə qovuşdu. Mən də bir şəhid anası kimi hər dəfə Vəlinin adı çəkiləndə fəxr edirəm. Şəhid olmaq, şəhid valideyni olmaq hər kəsə nəsib olmur. Vəli şəhadəti ilə mənə bu böyük adı bəxş etdi.

Bu gün Həqiqət ana oğul dərdi kimi ağır bir yükü çiyinlərində daşısa da, məğrur dayanıb. Belə şəhid anaları bizi hər zaman qürurlandırıb. O, Vəli haqqında fəxrlə, qürurla danışır:

– Övlad itkisinə, onun ayrılığına, ağrıacısına dözmək çox çətindir. Bu acının bir zərrəsini belə sözlə ifadə etmək mümkün deyil. Ancaq mən heç vaxt ağrı-acımı ətrafımdakı insanlara ötürmək, onlara bədbin əhvali-ruhiyyə vermək istəmirəm. Vəlinin ölümü adi bir ölüm deyil. Bu ölüm qəmi-kədəri, sevinci, qüruru, fəxarəti eyni anda yaşadan bir ayrılıq formasıdır. Şəhid olmaq Vəlinin ən böyük arzusu idi. Vəli arzusuna çatdı. Onun öz arzusuna çatması, eyni zamanda mənim də dualarımın qəbul olunması demək idi. Çünki mən dua edərkən Allahdan hər zaman övladımı ən uca zirvələrə, ən yüksək məqamlara yüksəltməsini istəyirdim. Elə də oldu, Allah səsimi eşitdi, balamı ən yüksək zirvəyə – şəhidlik mərtəbəsinə yüksəltdi. Vəli cismən bu dünyada olmasa da, ruhən mənimlədir. O məni darıxmağa qoymur: tez-tez yuxularıma gəlir, günün müəyyən vaxtına qədər sanki yanımda imiş kimi hənirtisini hiss edirəm. Allah dövlətimizi, xalqımızı qorusun. Xalqımız – Vətənimizin qayğıkeş insanları olmasaydı, bəlkə də, mən bu ayrılığın yükünü qaldıra bilməzdim. 44 günlük Vətən müharibəsi zamanı bir yumruqtək birləşib Ali Baş Komandanımızın, müzəffər Ordumuzun yanında olan xalqımız müharibədən sonra da bizim yanımızda oldu, bizləri tək qoymadı. İstər muxtar respublikamızdan, istərsə də ölkəmizin digər bölgələrindən, demək olar ki, hər gün qonaqlar gəlir, bizləri ziyarət edir, şəhidlərimizə necə dəyər verdiklərini göstərirlər.

Bəli, şəhidlərimiz bizim sızlayan Qarabağ adlı yaramızı sarıdılar, Şuşa adlı dərdimizə dərman oldular, Kəlbəcər, Laçın, Füzuli, Zəngilan, Qubadlı, Cəbrayıl, Ağdam həsrətini sevinclə, şadlıqla, vüsalla əvəz etdilər. Bizə hədsiz sevinc, qürur, fəxarət hissi bəxş edən qəhrəman oğullarımız həm də Azərbaycanın gücünü, qüdrətini bütün dünyaya göstərdilər. İllərdir, çəkdiyimiz acıların, verdiyimiz şəhidlərin qisasını layiqincə alan igidlərimiz, nəhayət ki, Qarabağın köksündə yanan atəşi, odu söndürdülər. Bizə qələbə sevinci yaşadan şəhidlərimizi daim minnətdarlıqla, ehtiramla anmaq, onların xatirəsini yaşatmaq, hər şeydən əvvəl, bizim vətəndaşlıq borcumuzdur. Bizlər bu borcu heç vaxt unutmayacaq, onları qəlbimizdə əbədi yaşadacağıq.

**Qafar QƏRİB**
**Yeganə QULİYEVA**

---

# Naxçıvan Şəhər İcra Hakimiyyətinin qurumlarında kadr dəyişikliyi olub

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidovun müvafiq sərəncamları ilə Naxçıvan Şəhər Sanitar Təmizlik İdarəsinin rəisi, Naxçıvan Yaşıllaşdırma Xidmətinin və Naxçıvan Şəhər Ticarət və Xidmət Departamentinin direktorları, Naxçıvan "Sukanalizasiya" İdarəsinin müdiri vəzifələrindən azad edilib.

Mirsənani Seyidovun digər sərəncamları ilə Qurbanov Arzu Heydər oğlu Naxçıvan Şəhər Sanitar Təmizlik İdarəsinin rəisi, Seyidov Zəka Alim oğlu Naxçıvan Yaşıllaşdırma Xidmətinin direktoru, Vəliyev Əli Vəli oğlu Naxçıvan Şəhər Ticarət və Xidmət Departamentinin direktoru, Mustafayev Mustafa Vəli oğlu Naxçıvan "Sukanalizasiya" İdarəsinin müdiri təyin olunub.

**Xəbərlər şöbəsi**

*Bu il 140 illik yubileyini qeyd edən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrı öz yenilikləri ilə mədəniyyətimizə dəyərli töhfələrini verməkdədir. 1883-cü ildən bəri Azərbaycan teatrının bir qolu olan Naxçıvan Dövlət Milli Dram Teatrı bu gün də fəaliyyətini uğurla davam etdirir. Milli mədəniyyətimizin bir sahəsi kimi, teatr sənətinin də inkişafına böyük diqqət göstərən Ulu Öndər Heydər Əliyevin bu sənətə sevgi və qayğısını əsirgəməməsi Naxçıvan teatrının inkişafı üçün bir yol olmuşdur. Daim bu qayğıdan bəhrələnən teatr kollektivi müstəqilliyimizin bərpasından sonrakı dövrdə böyük inkişaf mərhələsinə qədəm qoymuş, çoxsaylı uğurlara imza atmış, göstərilən etimadın öhdəsindən layiqincə gəlməyə çalışmışdır.*

# Mir Qabil Əkbərov: “Təqdim etdiyimiz tamaşa və səhnəciklər türkiyəli izləyicilərin marağına səbəb oldu”



Davamlı olaraq teatr səhnəsində həm Azərbaycan, həm də dünya klassiklərinin əsərlərini uğurla səhnələşdirən teatr kollektivi tamaşaçıların hafizəsində dərin iz buraxaraq mədəni mühitin formalaşdırılmasına öz töhfələrini verməkdə davam edir. Yaradıcı kollektivin təqdim etdiyi səhnə əsərləri hər zaman tamaşaçı rəğbəti qazanır. Bu isə kollektivin daha məsuliyyətlə işləməsinə zəmin yaradır. Teatr kollektivinin bu yaxınlarda qardaş Türkiyədə mədəniyyətimizi uğurla təmsil etməsi də bunu bir daha göstərdi. Elə biz də bu qastrol səfəri ilə bağlı ümumi təəssüratları öyrənmək üçün teatrın baş rejissoru ***Mir Qabil Əkbərov***la həmsöhbət olduq.





Müsahibimiz qeyd etdi ki, Naxçıvan Dövlət Milli Dram Teatrının yaradıcı kollektivi iyul ayının 13-dən 17-dək qardaş ölkə Türkiyə Respublikasında qastrolda olub: – Bu səfər həm də onunla əlamətdar oldu ki, səfərimiz Türkiyə Cümhuriyyətinin 100-cü ildönümü və teatrımızın 140 illiyinə təsadüf edirdi. Qastrol çərçivəsində Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Səməd Canbaxşiyevin türkiyəli dramaturq Mehmet Ümit Görgülünün “Cebimizdeki cinnet” əsəri əsasında hazırladığı “Cibimizdəki dəlilik” psixoloji komediyası Ege bölgəsi, Sardes, Foça və İzmir kimi şəhərlərdə teatrsevərlərə təqdim olundu.

Qeyd edim ki, Dionisos Teatr Təlim Düşərgəsinin koordinatoru, pedaqoq, dosent Rasim Aşının dəvəti ilə Sardesdəki düşərgədə iştirak etdik. Antik dövrdə teatrın yarandığı iddia edilən Sardesdə keçirilən VIII Beynəlxalq Dionis Teatr və Təlim Düşərgəsi bizim üçün çox maraqlı oldu. Belə ki, düşərgədə Azərbaycanı təmsil edən teatr kollektivi türkiyəli mütəxəssislər tərəfindən təşkil olunan təlimlərdə iştirak etdik. Eyni zamanda düşərgədəki təlimlərdə Naxçıvan Dövlət Milli Dram Teatrının direktor müavini Səməd Canbaxşiyev teatrın tarixi, yaradıcılıq ənənələri və bu günü ilə bağlı iştirakçılara geniş məlumatlar verdi. Bu isə oradakı iştirakçılar üçün də maraqlı oldu.

Mir Qabil müəllim bildirdi ki, orada teatr səhnələri təqdim olunmaqla yanaşı, digər səhnəciklərə də yer ayrılmışdı. Azərbaycan folklor nümunələri də türkiyəli izləyicilərin marağına səbəb oldu. Xüsusən də Sardesdə açıq hava altındakı meydanda “Kos-kosa” oyunu, “Xınayaxdı” mərasimi və “Tənzərə” yallısı tamaşaçılar tərəfindən sevgi ilə qarşılandı. Bu folklor nümunələrinin Türkiyədə layiqincə təbliğ olunması, təbii ki, mədəniyyətimiz üçün böyük bir töhfədir. Və bu töhfədə payımızın olması çox sevindiricidir.

Söhbət zamanı müsahibimiz Foçadakı tamaşaçıların da teatr kollektivini heyranlıqla izləmələrindən söz açdı. Hətta yerli tamaşaçı ilə Türkiyədəki tamaşaçıların bəzi fərqli tərəflərindən də bizə danışdı: – Yerli tamaşaçılarımızdan fərqli olaraq türkiyəli tamaşaçılar səhnə ilə birbaşa dialoqa girərək interaktiv şəkildə səhnəni birgə bölüşməmizi istəyirdi. Bu artıq onlarda vərdiş halını alıb və bu cür ünsiyyət olmadığı təqdirdə həmin tamaşaçıları razı salmaq mümkün olmur. Bizim də həmin tamaşaçılarla səhnə vasitəsilə birbaşa ünsiyyətimiz onlar tərəfindən alqışlarla qarşılandı. İzmir şəhərində Bələdiyyə Teatrının binasında da tamaşaçı qarşısına çıxdıq. Demək olar ki, hər bir tamaşamız və digər səhnəciklərimizlə tamaşaçıların rəğbətini qazandıq.

Söhbət zamanı bunu da öyrəndik ki, əsərin müəllifi türkiyəli dramaturq Mehmet Ümit Görgülü tamaşaların təqdimatından sonra Naxçıvan teatrının kollektivi ilə görüşmüş, əsərin yüksək peşəkarlıqla tamaşaçılara nümayiş olunmasına görə təşəkkür edərək gələcək fəaliyyətində teatrımıza uğurlar arzulamışdır. Tanınmış müasir türk dramaturqu, teatr sənəti ilə yaxından bağlı olan bir müəllif qarşısında əsərini fərqli səhnə yozumunda, doğma xalqın sənət ocağı tərəfindən təqdimatı çox böyük məsuliyyət tələb edir. Onu da qeyd edək ki, əsər ilk dəfə 2015-ci ildə çap olunub və Anadolu Teatr mükafatlarından birinə layiq görülüb. Müəllifin Türkiyədə və bir sıra xarici ölkələrdə əsərləri tamaşaya qoyulsa da, “Cibimizdəki dəlilik” ölkəmizin teatr səhnəsində ilk yorumudur. Tamaşa bütün mənəvi çərçivələrə qarşı başarı mübarizənin uğurlu səhnə həllidir. Eyni zamanda klassik teatr ənənələri ilə müasir teatrın vəhdətindən yoğrulan uğurlu teatr yeniliyidir. Bütün bunları nəzərə alaraq türk ictimaiyyəti qarşısında əsərin fərqli səhnə yozumunun belə yüksək səviyyədə qarşılanması çağdaş qardaş ədəbiyyata yaradıcı münasibətdən, əsərin ideya və məzmununun dərindən dərk olunmasından xəbər verir. Xatırladaq ki, may ayında müasir türk yazıçısı Mehmet Ümit Görgülünün psixoloji dram janrında olan “Cibimizdəki dəlilik” əsəri əsasında səhnələşdirilən tamaşa doğma səhnəmizdə də maraqla qarşılanıb. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Birinci Naxçıvan Kitab Sərgisində iştirak edən ziyalılar, Qazaxıstan Respublikasının incəsənət ustaları və ictimaiyyət nümayəndələri tamaşanı yüksək qiymətləndiriblər. Müəllif və türk ziyalıları, sənətsevərləri qarşısında tamaşanın uğurlu təqdimatı isə teatrımızın böyük sənət hadisəsi sayıla bilər.

Qeyd etmək istərdim ki, əsərin rejissoru, musiqi tərtibatçısı və baş rolunun ifaçısı Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Səməd Canbaxşiyev, rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramovdur. Tamaşada Azərbaycan Respublikasının Əməkdar artisti Əbülfəz İmanov və gənc aktyorlar Mir Qabil Əkbərov, Ələsgər Quliyev, Mehri Nəbiyeva, Məmməd Mehdiyev, Uğur Nəsirli, Laman Vəliyeva, Vəfa Qurbanova, Amil Yusifov iştirak edirlər.

Baş rejissor dedi: – Tarixi ənənələrə malik Naxçıvan teatrının bu qastrol səfəri Türkiyə mətbuatının da diqqətini cəlb etdi. Ümumilikdə, həm kollektivimizin peşəkar oyun təqdimatı, həm də milli mədəni nümunələrimizin türk tamaşaçılarına uğurlu təqdimatı onlar üçün də yaddaqalan oldu. Düşünürük ki, belə səfərlər Türkiyə və Azərbaycan mədəniyyəti, incəsənəti arasındakı bağların daha da möhkəmlənməsinə öz töhfəsini verir. Fürsətdən istifadə edib qastrol səfərinin gerçəkləşməsində əməyi olan hər kəsə minnətdarlığımızı bildirir, kollektivimizə göstərilən etimadı bundan sonra da doğruldacağımıza inanırıq.

*Elə biz də fürsətdən istifadə edib 140 illiyi qeyd olunan teatr kollektivini ürəkdən təbrik edir, yeni yaradıcılıq uğurları arzulayırıq. İnanırıq ki, milli mədəniyyətimizin təbliğinə böyük töhfələr vermiş Naxçıvan Dövlət Milli Dram Teatrı bundan sonra da uğurla fəaliyyəti ilə tamaşaçıların rəğbətini qazanacaq.*

**Aidə İBRAHİMOVA**

## “Perinatologiyanın aktual aspektləri” mövzusunda təcrübə mübadiləsi aparılıb





Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikası Perinatal Mərkəzində Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutundan dəvət olunmuş yüksəkixtisaslı həkim heyəti tərəfindən “Perinatologiyanın aktual aspektləri” mövzusunda təcrübə mübadiləsi aparılıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Perinatal Mərkəzində çalışan həkim mama-ginekoloqlar və neonatoloq həkimlər iştirak ediblər.

Əvvəlcə “Naxçıvan Muxtar Respublikası Perinatal Mərkəzi” publik hüquqi şəxsin direktorunun inzibati işlər üzrə müavini və direktor vəzifələrini icra edən Ülkər Bayramova və Mərkəzin baş həkimi və direktorun müavini Kifayət Məmmədova çıxış edərək keçirilən tədbiri əhalinin sağlamlığının qorunması, mama-ginekoloji xidmətin keyfiyyətinin artırılması, Naxçıvan Muxtar Respublikası Perinatal Mərkəzində çalışan tibb işçilərinin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və praktiki bacarıqlarının təkmilləşdirilməsi baxımından yüksək qiymətləndiriblər.

Təcrübə mübadiləsi zamanı Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun böyük elmi işçisi, həkim-neonatoloq Lalə Rzayevanın, mama-ginekoloq Şəhla Əsgərovanın, Kifayət Adıgözəlovanın müxtəlif mövzularda çıxışları dinlənilib, slaydlar nümayiş olunub.

Təcrübə mübadiləsi və əməkdaşlığın qurulması məqsədilə təşkil olunan tədbir zamanı əyani olaraq xəstələr üzərində müalicə və müayinələr də aparılıb.

## Tədbir keçirilib



Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Səhiyyə Nazirliyinin birgə təşkilatçılığı ilə tədbir keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin aparat rəhbəri Vüsal Məmmədov, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini Vüsal Məmmədov və Agentliyin əməkdaşları çıxış edərək tədbirin keçirilməsinin zəruriliyi və məqsədlərindən danışıblar. Tədbir iştirakçılarına məlumat verilib ki, icbari tibbi sığortanın tətbiqində iştirak edən tibb müəssisələrində “Səhiyyə informasiya idarəetmə sistemi” qurulmuş və sığortaolunanlara göstərilən tibbi xidmətlərə dair hesabatlılıq proqram təminatı üzərində aparılmaqdadır. Bu sistemin təkmilləşdirilərək tam mərkəzləşdirilmiş qaydada həyata keçirilməsi, sistemdə olan boşluqlar, yaranmış bir sıra nöqsanların, yeni modulların yaradılması və bir sıra dəyişikliklərin edilməsi geniş müzakirə olunub. Xüsusilə qeyd edilib ki, icbari tibbi sığortanın başlıca funksiyası və əsas məqsədi tibb müəssisələrinin düzgün hesabatlılığı və şəffaf maliyyələşmə mexanizminin yaradılmasından ibarətdir. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin əməkdaşları həkimlərin hesabatlarında olan nöqsanları əyani şəkildə ekranda göstərərək, tələb olunan maliyyə vəsaitlərinin buna görə azaldılaraq tibb müəssisəsinə ödənildiyini həkimlərin nəzərinə çatdırıb. Tibbi ekspertiza qaydaları qanunvericiliyə uyğun olaraq təqdimat şəklində tədbir iştirakçılarına izah olunub. Tədbir diskussiya ətrafında davam etdirilib və həkimlərin sualları cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Baş Gömrük İdarəsi tərəfindən 513 hüquqpozma faktı aşkarlanıb



2023-cü ilin 6 ayı ərzində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Naxçıvan Baş Gömrük İdarəsi tərəfindən, ümumilikdə, 513 hüquqpozma faktı aşkar edilib. Aşkar edilən faktlardan 40-ı cinayət xarakterlidir və bunların 26-sı narkotik vasitələrin, psixotrop və güclü təsir edən maddələrin qaçaqmalçılığı ilə bağlı olub.

Narkotik qaçaqmalçılığı faktları üzrə, ümumilikdə, 568,5 kiloqram heroin, 139 qram həşiş qatranı, 47 qram marixuana, 26 qram tiryək, 11 qram psixotrop maddələr, 110 qram güclü təsir edən maddələr qanunsuz dövriyyədən çıxarılıb. Cari ilin 6 ayı ərzində 473 inzibati xarakterli hüquqpozma faktı aşkar edilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 372 fakt çoxdur.

***Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsi***

### İtmişdir

Şərur rayonunun Düdəngə kəndində yaşamış Həsənov Həsən Müseyib oğlunun adına verilmiş JN-1604ᴬ inventar nömrəli, 10206005 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Culfa rayonunun Yaycı kənd sakini Quliyev Həsən Qulu oğlunun adına olan qeyri-yaşayış sahəsinin 06 inventar nömrəli, 06326 reyestr nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, 12-ci məhəllə (B.Abbasov) 5/21ᴬ ünvanında yaşamış Babayeva Dilbər Qulam qızının adına olan 16123 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonunun Vənənd kənd sakini Əhmədov Şəmil İbrahim oğluna məxsus Dizə kəndində yerləşən JN-023ᴬ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 444